# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№316/4** **28 dekabr 2019-cu il**

**“Audit komitələri haqqında” Əsasnaməyə dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 1.2.7-ci “Audit komitələri haqqında” Əsasnamənin yenidən işlənməsi” bəndinin icrasını təmin etmək məqsədi ilə Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri N.Talıbov, Audit komitələri və daxili audit qurumları ilə iş şöbəsinin müdiri M.Hüseynova tərəfindən dəyişikliklər edilmiş və yenidən işlənib hazırlanmış “Audit komitələri haqqında” Əsasnamənin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit komitələri haqqında” yenidən işlənib hazırlanmış Əsasnamə bəyənilsin (əlavə olunur).
2. Aparatın rəhbəri Q.Bayramova, Audit komitələri və daxili audit qurumları ilə iş şöbəsinin müdiri M.Hüseynova tapşırılsın ki, bir həftə müddətində “Audit komitələri haqqında” Əsasnamənin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə göndərilməsi və dərc etdirilməsi üçün “İqtisadiyyat” qəzetinə təqdim edilməsi təmin edilsin.
3. Bu qərarın və “Audit komitələri haqqında” Əsasnamənin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**